# Qütbləri əlaqələndirən uğurlu sülhyönümlü siyasət



*Üçüncü minillik başlayandan ictimai-siyasi və iqtisadi proseslər kontekstində diqqəti cəlb edən sərhədlərin beynəlxalq iqtisadi əlaqələr üçün açılmasıdır. İnkişaf etmiş ölkələrin belə əsas məqsədi müxtəlif regional bazarları zəbt etməklə dünya bazarına nəzarəti ələ keçirməkdir. Dörd əsrdən sonra dünyanın iki qütbünü - Şərqlə Qərbi birləşdirən Böyük İpək Yolunun yenidən bərpası da bu ehtiyac üzündən yaranmışdır. Şərti ad İpək Yolu olsa da, indi nə karvan, nə də ipək Qoca Şərq və müasir Qərb dünyası üçün səciyyəvi olmadığından maraqlı deyil. İndi həmin yollarla neft, qaz, alternativ enerji - "yaşıl enerji" nəql olunmağa başlayıb. Əsrlər ötsə də, dünya, zaman dəyişsə də, böyük imperiyalar dövrü çoxdan keçsə də, böyük siyasətlər dövrü hələ keçməmiş, həmin yolların rolu yenidən artmağa başlamışdır. Buna görə də ərazisindən asılı olmayaraq kiçik ölkələrin siyasi münasibətlərin labirintlərindən öz liderlərinin böyük siyasətçi məharəti ilə uğurla çıxması mümkündür. İqtisadi mənafelərə əsaslanan siyasətin rolu isə daha önəmli əhəmiyyət kəsb etməyə başlamışdır.*










## Təəssübkeşliyin iqtisadi maraqlar müstəvisinə inikası

Məhz Azərbaycanın müstəqil, dünya ölkələrinə münasibətdə açıq iqtisadi siyasət strategiyasını seçməsi, ictimai-siyasi sabitliyi, ciddi və etibarlı tərəfdaş olması elə perspektivlər açdı ki, bərpa olunan ticarət yolunda ölkəmiz mərkəzi yerlərdən birini tutdu. Bu baxımdan, Azərbaycan da uğurlu siyasəti ilə yenidən Şərqlə Qərb arasında strateji körpü rolunu oynayır. Ən əsası isə Azərbaycanın və onun təşəbbüsü ələ ala bilən siyasi liderinin dünyada yüksək nüfuza malik olması, iqtisadi əlaqələrin, beynəlxalq strateji müqavilələrin etibarlılığı onu təmin edir. Bütün bunlar Azərbaycanın yeni yaradılan beynəlxalq iqtisadi-siyasi əlaqələrdə aparıcı rolunu daha da möhkəmləndirir. Hazırda Şərq-Qərb, Şimal-Cənub yollarının kəsişməsində yerləşən ölkəmiz vahid Avropa-Asiya iqtisadi məkanında hab rolunu oynayır.

Orta Asiya ölkələrindən fərqli olaraq, xüsusi strateji mövqeyə malik olması, həmin ölkələrlə əlaqə yaratmaq potensialı, Xəzər Dəniz Gəmiçiliyinin imkanları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının müasirliyi, modernliyi, yükdaşıma qabiliyyətinin yüksək olması, yeni iş rejiminə uyğunluğu və s. Azərbaycanın əlavə üstünlükləridir.

Bu gün Azərbaycan ərazisi neft kəmərlərinin çəkilişi, Orta Asiyanın təbii sərvətlərinin Avropaya daşınması baxımından çox strateji bir mövqe qazanmışdır. Bütün bunların fundamenti regional, bəzən də kiçik hesab olunan problemlərə böyük coğrafi-siyasi xəritələr kontekstində baxa bilməyi bacarmaqla, beynəlxalq-ictimai rəy mənzərəsini dəyişdirmək üçün məqsədyönlü siyasət aparan ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz Ümummilli Liderin sayəsində ötən əsrin doxsanıncı illərində regionun maraqlarını, regionda Azərbaycanın maraqlarını beynəlxalq siyasətin mərkəzinə çəkməklə coğrafi-siyasi mənzərənin dəyişməsinə nail olundu. Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarının Qərb istehlakçılarına çatdırılmasında mühüm vasitə olan boru kəmərləri (Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan) reallaşdırıldı.

Böyük dövlətlərin maraqlarının toqquşmasının mürəkkəb mənzərəsindən məharətlə çıxış yolu tapan Ulu Öndər demişdir: *"Dövlətlərarası, ölkələrarası nə qədər belə kommunikasiyalar yaransa və bu, Avropa ilə Mərkəzi Asiyanı birləşdirən kommunikasiyalar olsa, həm Qafqazda, həm də Mərkəzi Asiyada sülhün yaranmasına, təhlükəsizliyin təmin olunmasına o qədər təminat yaradacaqdır. Bizim üçün isə bu, hər şeydən əhəmiyyətlidir, hər şeydən önəmlidir".*

Yaponiyadan Avropanın şimalınadək uzanan marşrutların ölkəmizin ərazisindən keçməsi uzaqgörən siyasət nəticəsində əldə olunmuş uğurların nəticəsidir. Qeyd edək ki, Mərkəzi Asiyanın dəmir yolu ilə Rusiya ərazisindən Avropaya çıxışı indiki marşrutdan 2000 kilometr uzundur. 1998-ci il sentyabrın 7-8-də Bakıda keçirilən Böyük İpək Yolunun (BİY) bərpasına həsr olunmuş beynəlxalq konfrans Azərbaycanın sosial-iqtisadi və mədəni-mənəvi perspektivlərinə böyük təsir etdi. Beynəlxalq miqyasda çox böyük səylər nəticəsində Bakıda keçirilən bu tədbir Azərbaycanın dünya miqyasında daha böyük nüfuz qazanmasında bir mərhələ olmaqla ölkələrarası mədəni əlaqələrin intensivləşməsinə də imkanlar yaratdı. Bu nailiyyətlərdən qaynaqlanan maksimum bəhrələr, göstərilən səylər estafetin iqtisadiyyata və mədəniyyətə verilməsi naminə atılan ən ciddi addımlar oldu.

## Qlobal siyasətdə aktor

Hazırda planetimiz elə bir yeni eranın başlanğıcındadır ki, bəşəriyyəti idarə edən iqtisadi prinsiplərdir. Daha konkret desək, ölkələrin böyüklüyü və ya kiçikliyi sərhədlənmiş coğrafi ərazilərlə deyil, iqtisadi nüfuz dairələri ilə müəyyən olunur. Gərgin mübarizələrlə yaradılan vahid iqtisadi məkandakı payı ilə ölçülür. Bu baxımdan yanaşdıqda ötən əsrin sonlarında müharibələrin və toqquşmaların səngiməditi bir regionda beynəlxalq iqtisadi maraqların intensivliyini artırmaqla yanaşı, supergüclərin, böyük dövlətlərin kor-koranə dini təəssübkeşlik hisslərini iqtisadi maraqlarla kompensasiya etmək, onları iqtisadi dividendlər müstəvisinə dəvət etmək ulu öndər Heydər Əliyevin böyük siyasətdə ən mühüm uğurlarından idi.

Beynəlxalq siyasət müstəvisində atılan bu addımlar həmin dövrdə ölkəmiz üçün yaradılmış ən böyük problemin həllinə, həm də Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə və bütün dövrlər üçün dönməzliyinin təmininə yönəldilmişdir. Ümummilli Lider bu barədə öz fikirlərini belə ifadə etmişdi: *"Biz istəyirik ki, həqiqətən Avropada təhlükəsizlik, sülh, əmin-amanlıq olsun, eyni zamanda öz problemimizin həllini, yəni Qafqazda əmin-amanlıq, sülh olmasını istəyirik".*

Bəşəriyyət tarixinə diqqət edəndə görünür ki, iqtisadiyyat da, mədəniyyət də, dövlətlər və ölkələrarası digər əlaqələr də arxa planda qalır, ən çox nəzərəçarpan müharibələr olur. Azərbaycan da 30 illik müstəqillik tarixində əks-hücumla başlayan, Zəfərlə tamamlanan Vətən müharibəsi dövrünü yaşadı. Zəfərə gedən yolda isə neçə-neçə görünməyən vəsilələr vardır. Müharibəyə ideya (nəzəri hazırlıq) - hadisə (praktik müharibə) kontekstində yanaşsaq, deyə bilərik ki, hadisə müstəvisində məqsədə nail olmaq üçün ideya müstəvisində ona müntəzəm surətdə ardıcıllıqla yaxınlaşmaq lazım oldu. Bunun üçün beynəlxalq ictimai rəyi, geosiyasi iqlimi, sosial-psixoloji infrastrukturu əlverişli vəziyyətə gətirməklə regionda siyasi aktor olmaq lazım idi. Belə hallarda həqiqəti etiraf etməliyik ki, kiçik ölkələrin siyasət meydanındakı problemləri böyük ölkələrinkindən də çox olur. Ölkə kiçik olanda, öz istəyindən asılı olmayaraq, irimiqyaslı geosiyasi oyunların mərkəzinə cəlb olunanda ağırlıq mərkəzi siyasətə, yeganə optimal olan gedişləri tapa bilən, qlobal mənafelər fonunda vəziyyəti vaxtında düzgün qiymətləndirən siyasi liderin üzərinə düşür, yəni nəyi, necə, nə vaxt etməyi bacaran liderin varlığı ilə məsələnin həllinə nail olmaq olur.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsi Zəfərlə başa çatandan dərhal sonra işğaldan azad olunmuş ərazilərimizdə geniş yenidənqurma və irimiqyaslı quruculuq işləri başlandı. Müharibənin ilk günündən *"Azərbaycan yalnız deyil, biz onun yanındayıq"*, - deyən qardaş Türkiyənin, həmçinin Özbəkistanın, Qazaxıstanın, Qırğızıstanın, İtaliyanın, İsrailin və digər dost və tərəfdaş ölkələrin şirkətləri layihələndirmə və quruculuq işlərində yaxından iştirak edirlər. Bu, həm dost, qardaş köməyi, həm də qarşılıqlı mübadilədir. Çünki ayrıca götürülmüş bir ölkə yalnız öz çərçivəsində iqtisadiyyatını yüksək səviyyədə inkişaf etdirə bilməz. Bu barədə ümummilli lider Heydər Əliyevin fikirləri daha dəqiq və konkretdir: *"Dünya iqtisadiyyatının inteqrasiyası, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətdir və ümumiyyətlə, dünyada daha da yüksəlmək üçün bu, yeganə bir yoldur".*

## Çin-Avropa marşrutunda əsas hab

Ulu Öndərin tövsiyələrinə uyğun olaraq həmin ənənələr bu gün də yaşadılır. Hazırda Azərbaycan Avropa-Qafqaz-Asiya və ya Avropa-Asiya dəhlizinin yenilənməsi, inkişafı və təkmilləşdirilməsi üçün xüsusi aktivlik göstərməklə həlledici aktora çevrilib. Çin-Mərkəzi Asiya-Azərbaycan-Türkiyə-Avropa xətti hazırda bütün daşımalar üçün ən əlverişli, perspektivli marşrutdur. Bu marşrutla (dəmiryolu da daxil) nəinki neft-qaz, alternativ enerji - "yaşıl enerji" Avropa və dünya bazarlarına çatdırılacaq, həm də digər xammal və yüngül sənaye məhsulları ixrac ediləcək. Ölkəmiz Şərq-Qərb nəqliyyat xəttində zəruri məntəqə olmaqla layihənin həyata keçirilməsində siyasi-iqtisadi mövqedən aparıcı rol oynayır. Mütəxəssislərin hesablamalarına görə, həmin marşrut üzrə yükdaşımaların sürəti 2 dəfə artmaqla 30 faiz ucuz başa gəlir. Yenə də mütəxəssislərin statistik bir göstəricisinə müraciət edək: 1 ton Özbəkistan pambığının əvvəlki marşrutla, yəni Qazaxıstan-Rusiya-Ukrayna marşrutu ilə daşınmasına 100 dollar sərf olunurdusa, həmin yükün Azərbaycandan keçməklə daşınmasına 55 dollar sərf olunur.

> *"Ulu öndər Heydər Əliyevin böyük siyasətdə ən əsas uğurlarından biri regionun coğrafi-siyasi xəritəsində iqtisadi meyillərin intensivliyini artırmaqla supergücləri zahiri ermənipərəstlikdən uzaqlaşdıraraq iqtisadi maraqlar müstəvisinə cəlb etməsi idi. "Əsrin müqaviləsi", BİY-in bərpası, BTC layihəsi, "Qafqazda təhlükəsizlik paktı" ideyası, digər çoxsaylı beynəlxalq neft-qaz müqavilələri vahid strateji siyasətin detalları olsa da, həmin böyük mərama xidmət etmişdir."*

Bütün bunlar Azərbaycanın planetar siyasətdə yerinin və rolunun əhəmiyyətinin, uğurlu, uzaqgörən siyasətinin, şərqli-qərbli, şimallı-cənublu dünya ölkələri ilə bərabərhüquqlu, etibarlı tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin göstəricisidir. Son dövrlər Azərbaycan Prezidenti İlham Əliyevin Mərkəzi Asiya, Yaxın Şərq və Avropa ölkələrinə səfərləri, Qoşulmama Hərəkatı (QH) çərçivəsində əməkdaşlıq münasibətləri ölkəmizin beynəlxalq arenada yerinin və rolunun, əhəmiyyətinin artmasını təsdiq edir.

Cari ilin noyabrında çox əhəmiyyətli beynəlxalq tədbirin, ən böyük iqlim konfransının - COP29-un 200-ə yaxın ölkənin konsensus qərarı ilə regionda ilk dəfə Azərbaycanda keçirilməsi ölkəmizə olan ehtiram və etimadın təzahürüdür. Bəllidir ki, dünya ölkələrini və xalqları ümumən narahat edən ən böyük problem iqlim dəyişmələri mövzusudur. Dövlətlər arasında adıçəkilən məsələ ilə bağlı çox ciddi qarşılıqlı ittihamlar və iddialar mövcuddur. Belə bir ciddi, ziddiyyətli problemlə bağlı beynəlxalq konfrans üçün məkan olaraq ölkəmizin seçilməsi də incə mətləblərə işıq salır. Dünyanın əksər ölkələri də Azərbaycanın ev sahibliyi edəcəyi, qlobal problemə həsr olunmuş, çox önəmli tədbirdə yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağına və bütün lazımi dəstəyi göstərməyə hazır olduqlarını bildiriblər.

> *"Bu gün Azərbaycan Prezidentinin böyük siyasətdə və uğurlu enerji strategiyasında ən əsas məqsədlərindən biri iqtisadi müstəvidə fokuslanmış maraqların əvəzləyici vektorunu Cənubi Qafqazda böyük sülhün reallaşmasına yönləndirməkdir, yəni 30 illik münaqişənin Azərbaycanın təşəbbüsü ilə sülh sazişinin imzalanması ilə yekunlaşmasıdır. Bu, həm də tarixdə iki ölkənin birlikdə özlərinin sülhə nail olması nümunəsi kimi qalar."*

Şimaldan-Cənuba, Şərqdən-Qərbə keçən iqtisadi və müxtəlif sahələrdəki əməkdaşlıqda mühüm həlqə olan Azərbaycan dünyanın bir çox ölkələri ilə müttəfiqlik, tərəfdaşlıq və strateji əlaqələr qurub. Türkiyə, Rusiya və Özbəkistanla müttəfiqlik münasibətləri, ŞƏT-lə tərəfdaşlıq, QH çərçivəsində əməkdaşlıq, bir çox beynəlxalq təşkilatlara üzvlük, BRICS-lə əlaqələr və s. ölkəmizin beynəlxalq arenada qlobal aktor olmasa belə böyük dövlətlər, planetar arenada müxtəlif aktorlar, qütblər arasında körpülərin qurulmasında çox fəal olduğunu göstərir.

Cari il sentyabrın 5-6-da Azərbaycan Prezidenti İlham Əliyevin Avropanın və dünyanın aparıcı sənaye dövlətlərindən olan, G7-də təmsil olunan, iqtisadi inkişafına görə Avropada 4-cü, dünyada isə 7-ci yerdə qərarlaşan İtaliyaya işgüzar səfəri bu baxımdan daha məhsuldardır. Qeyd edək ki, İtaliya məhsul ixracatı sahəsində 10 ölkədən biri olmaqla qızıl-valyuta ehtiyatına sahib olan üçüncü ən böyük dövlətdir.

İki ölkə arasında diplomatik əlaqələr 90-cı illərin əvvəlində yaradılsa da, dövlət başçıları səviyyəsində ilk səfər 1997-ci ildə reallaşmışdır. Həmin il sentyabrın 25-də ulu öndər Heydər Əliyevin səfəri zamanı imzalanan "İqtisadi əməkdaşlıq haqqında Birgə Bəyanat" və "İnvestisiyaların qorunması və həvəsləndirilməsi haqqında müqavilə" iqtisadi münasibətlərin təməli olmaqla ölkələrarası gələcək inkişafa təkan verdi. İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın ölkəmizə tarixi əhəmiyyət kəsb edən səfəri 18-19 iyul 2018-ci ildə baş tutmuşdur. Azərbaycana səfər edən ilk İtaliya Prezidenti S.Mattarella və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında həmin səfər zamanı mühüm sənədlər imzalanmışdır. Prezident cənab İlham Əliyevin İtaliyaya ilk dövlət səfəri 19-21 fevral 2020-ci ildə gerçəkləşmişdir. Səfər zamanı ölkələrimiz arasında "Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə" də daxil olmaqla 30-a yaxın sənəd imzalanmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev bu günlərdə 2020-ci ildən bəri İtaliyaya 3-cü səfərini etmişdir. Yüksək səviyyəli siyasi təmaslar Azərbaycan və İtaliyanın yaxın tərəfdaş olduğunun nümayişidir. Azərbaycan-İtaliya əlaqələri bütün sahələr üzrə dinamik artımdadır. Azərbaycanın dünya üzrə bir nömrəli ticarət tərəfdaşı İtaliyadır. Ölkəmiz İtaliyanın bir nömrəli neft və ikinci ən böyük qaz təchizatçısıdır. Strateji tərəfdaş kimi İtaliya şirkətləri işğaldan azad edilmiş torpaqlarda bərpa-quruculuq işlərində çox fəaldırlar. Qələbə muzeylərinin layihələndirilməsində, dini abidələrin bərpa və tikintisində, digər müxtəlif layihələrin icrasında da fəallıq göz önündədir. Humanitar, mədəni və təhsil əlaqələri də yüksək səviyyədədir. Heydər Əliyev Fondunun Vatikanda bəşəriyyət üçün dəyərli əsərlərin qorunması və saxlanılması istiqamətindəki səyləri çox yüksək dəyərləndirilir. 2012-ci ildə Romada Nizami Gəncəvinin abidəsinin açılışı, 2020-ci ilin İtaliyada "Azərbaycan Mədəniyyəti İli" elan edilməsi və s. qədim tarixə malik Azərbaycan-İtaliya mədəni əlaqələrinin daha da inkişaf etməsində, xalqlarımızın, dövlətlərimizin bir-birinə yaxınlaşmasında əhəmiyyətli rola malikdir.

İki ölkə arasında enerji sahəsində əməkdaşlıq xüsusi önəm kəsb etsə də, strateji tərəfdaşlıq xarakterli çoxşaxəli əməkdaşlıq əsas yer tutur. Hazırda Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır. Bu da səbəbsiz deyil. Çünki 10 ölkə Azərbaycandan qaz alır ki, bunun da 7-si Avropa İttifaqının üzvüdür. Təməli Ümummilli Lider tərəfindən qoyulan, başlanğıcı Azərbaycanda olan neft-qaz boru kəməri İtaliyaya qədər uzansa da, marşrut boyu olan mövcud əlaqələr, interkonnektorlar sayəsində güclü potensiala malik boru kəmərinin əhatə etdiyi coğrafiya genişlənib. Cənub Qaz Dəhlizi boru kəməri hazırda 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Azərbaycanın nümayiş etdirdiyi güclü siyasi iradə, beynəlxalq normalara, hüquqa əməl etməsi, uğurlu və müstəqil xarici siyasəti sayəsində Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşdır. Bu gün İtaliyanın və ümum-Avropa ölkələrinin enerji təhlükəsizliyində Azərbaycanın rolu və əhəmiyyəti xüsusi qeyd olunur.

Azərbaycanın dünya ölkələri, o cümlədən ərəb ölkələri ilə də sıx əlaqələri mövcuddur. Alternativ enerjinin istehsalı və ixracı sahəsində Səudiyyə Ərəbistanının və Birləşmiş Ərəb Əmirliklərinin bir çox şirkətləri ilə əməkdaşlıq davam edir. Avropaya "yaşıl enerji"nin ixracında həmin şirkətlərlə birgə fəaliyyət həyata keçirilir, bu işlərin növbəti ayda başa çatdırılması nəzərdə tutulur. Hazırda "yaşıl enerji"nin ixracında mənbə rolu oynayacaq regionun ən böyük külək enerjisi stansiyasının tikintisi davam etdirilir.

## Böyük geosiyasi dəyişiklik

Cənubi Qafqazda regional əməkdaşlıq layihələrinin təşəbbüskarı olan ölkəmiz bütün ölkələrlə ikitərəfli və çoxtərəfli qarşılıqlı faydalı əlaqələr yaratmağa və onu qoruyub saxlamağa səy göstərir. Həmçinin Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası regionda baş verən ən böyük geosiyasi dəyişiklik oldu. Bu geosiyasi dəyişiklik bir çox məsələləri nümayiş etdirməklə həm də yaxşı nümunədir. Həmin məsələlər beynəlxalq hüququn aliliyi, siyasi iradənin varlığı, bütün qüvvələrin səfərbərliyi, real güc və s. özündə ehtiva edir. Buna görə də heç bir dəstək olmadan ərazi bütövlüyümüzü bərpa etmək bu gün yaxşı örnəkdir. Çünki heç bir təcavüzə əl atmadan öz torpağımızda döyüşdük, separatçılığın kökünü kəsdik, ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdik. Bu da bəzi "təəssübkeşlər"də qısqanclıq yaratdığından ölkəmiz müəyyən sanksiyalarla üzləşdi.

Hazırda Ermənistana olan dəstəyin əsas səbəbini kor-koranə dini təəssübkeşlik və erməniпərəstliklə yanaşı, həmçinin liderlərin siyasət müstəvisindəki "siyasi çəki" qeyri-bərabərliyində axtarmaq lazımdır. Bir çox beynəlxalq qurum, təşkilatların, bəzi dövlətlərin pərəstişlik və təəssübkeşlik mövqeyində hər vasitə ilə müəyyən siyasi tarazlıq yaratmağa çalışdıqları aydın hiss olunur. Lakin unudurlar ki, böyük siyasətdə kiçik fiqurlarla oyuna üstünlük verilmir, əks halda, "endşpil"də məğlubiyyət qaçılmaz olur.

Belə hallar baş verməsinə baxmayaraq, bizim suverenliyimizi tam bərpa etməyimiz mütərəqqi bəşəriyyət tərəfindən təqdir olunur və bir çox ölkələr yaxşı nümunə kimi bəyənir və dəstəkləyirlər. Burada da ikili standartlarla qarşılaşırıq. Eyni addım atan bəzi ölkələr bizdən fərqli olaraq, uğursuz şəkildə ərazi bütövlüyünü bərpa etmək üçün Qərb tərəfindən böyük dəstəklə mükafatlandırılırlar.

Bu barədə dövlətimizin başçısı cənab İlham Əliyev İtaliyada Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" sessiyasında çıxışında demişdir: *"Bu, bu gün ərazi bütövlüyünü və suverenliyini bərpa etmək istiqamətində uğura nail olmaqda çətinlik çəkən bir çox ölkə üçün yaxşı nümunədir. Azərbaycan öz nümunəsi ilə onu nümayiş etdirdi ki, beynəlxalq hüquq, güclü siyasi iradə, cəmiyyətin səfərbər olması və fiziki güc ciddi siyasi dəyişikliklə nəticələnə bilər".*

## Sülhə nailolma nümunəsi

Dünyaya nümunə olan Azərbaycan qazandığı yüksək nüfuz sayəsində neft-qaz, bərpaolunan enerji - "yaşıl enerji", bir sözlə, iqtisadiyyatın müxtəlif sahələrində, yeni texnologiyaların tətbiqi ilə çoxşaxəli əməkdaşlıq əlaqələrini daha da genişləndirmək əzmindədir.

Hazırda Azərbaycan Mərkəzi Asiya, Yaxın Şərq, Avropa və dünya ölkələri ilə münasibətlərinin yeni inkişaf mərhələsini yaşayır. Ölkəmiz müttəfiqlik, strateji tərəfdaşlıq, bərabərhüquqlu və etibarlı əlaqələrə əsaslanan münasibətləri bundan sonra da uğurla inkişaf etdirəcək.

Ulu öndər Heydər Əliyevin böyük siyasətdə ən əsas uğurlarından biri regionun coğrafi-siyasi xəritəsində iqtisadi meyillərin intensivliyini artırmaqla supergücləri zahiri erməniпərəstlikdən uzaqlaşdıraraq iqtisadi maraqlar müstəvisinə cəlb etməsi idi. "Əsrin müqaviləsi", BİY-in bərpası, BTC layihəsi, "Qafqazda təhlükəsizlik paktı" ideyası, digər çoxsaylı beynəlxalq neft-qaz müqavilələri vahid strateji siyasətin detalları olsa da, həmin böyük mərama xidmət etmişdir.

Bu gün Azərbaycan Prezidentinin böyük siyasətdə və uğurlu enerji strategiyasında ən əsas məqsədlərindən biri iqtisadi müstəvidə fokuslanmış maraqların əvəzləyici vektorunu Cənubi Qafqazda böyük sülhün reallaşmasına yönləndirməkdir, yəni 30 illik münaqişənin Azərbaycanın təşəbbüsü ilə sülh sazişinin imzalanması ilə yekunlaşmasıdır. Bu, həm də tarixdə iki ölkənin birlikdə özlərinin sülhə nail olması nümunəsi kimi qalar. Cənab Prezidentin dediyi kimi - *"Sovet İttifaqının süqutundan sonra ilk dəfədir ki, biz Cənubi Qafqazda sülhə nail ola bilərik... Bu isə təkcə Cənubi Qafqaz deyil, dünyanın bütün regionları üçün əhəmiyyətli olacaqdır".*

**Hümbət MUSAYEV.**